# HEYDƏR ƏLİYEVİN QEYRİ-NEFT SAHƏSİNDƏ İSLAHATLARI

**Həsənsadiq Hüseynov**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*doktorant. Elmi rəhbər: t.e.n.,dosent Qədimova Natavan*
*hasansadiqhuseynov@gmail.com*

## HAYDER ALIYEV'S REFORMS IN THE NON-OIL FIELD

**Huseynov Hasansadiq**

**Summary**

Shortly after our republic gained its independence, the formation of a new economic model in the country was initiated by the great leader Heydar Aliyev. In the first years of independence, attention was mainly focused on the oil sector among economic sectors, which made it possible for this sector to develop at a higher level than other sectors. As a result, the role of the oil factor has increased, and the volume of investments in this field has increased. At the same time, the development in the oil sector has affected other areas of the economy and expanded the state's ability to influence the non-oil sector. However, the fact that oil is a non-renewable resource and the changes in the price of oil in the world oil market in recent times have clearly shown the necessity of developing the non-oil sector. In recent years, the creation of inter-sectoral balance and efficient use of natural and material resources for the purpose of ensuring economic stability in our country remains an urgent issue. The state programs and measures implemented by the government have also created a foundation for the development of the non-oil sector. Currently, our state has chosen the development of the non-oil sector as a priority area and set it as a main task. Therefore, attention in the country is focused on raising the level of welfare of the population, transitioning to an export-oriented economy and increasing the competitiveness of the economy. Also, ensuring the sustainability of economic growth makes the development of the non-oil sector important. Thus, we can say that the development of the non-oil sector has an indispensable role in ensuring the national economic security of the country.

**Keywords: non-oil, food, agriculture, agricultural industry**

## HEYDƏR ƏLİYEVİN QEYRİ-NEFT SAHƏSİNDƏ İSLAHATLARI

**Həsənsadiq Hüseynov**

**Xülasə**

Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur.

Respublikamız öz müstəqilliyini əldə etdikdən qısa bir müddət sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkədə yeni iqtisadi model formalaşdırılmasına başlanmışdır. Müstəqilliyin ilk illərində iqtisadi sahələr arasında əsasən diqqətin neft sektoruna yönəldilməsi bu sahənin digər sahələrə nisbətdə daha üstün səviyyədə inkişaf etməsinə şərait yaratmışdır. Nəticədə neft amilinin rolu artmış, bu sahəyə yatırılan investisiyaların həcmi böyümüşdür. Bununla yanaşı, neft sektorunda olan inkişaf iqtisadiyyatın digər sahələrinə də təsir göstərmiş, dövlətin qeyri-neft sektoruna təsir etmə imkanlarını daha da genişləndirmişdir. Lakin, neftin bərpa olunmayan resurs olması və son dövrlərdə dünya neft bazarında neftin qiymətində olan dəyişikliklər qeyri-neft sektorunun inkişaf etdirilməsinin zəruriliyini açıq şəkildə göstərmişdir. Son illərdə ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi uğrunda sahələrarası tarazlığın yaradılması, təbii və maddi resurslardan səmərəli istifadə edilməsi aktual məsələ olaraq qalmaqdadır. Hökumət tərəfindən həyata keçirilən dövlət proqramları və tədbirlər də müvafiq olaraq qeyri-neft sektorunun inkişafına zəmin yaratmışdır. Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın inkişafında diversifikasiya (şaxələnmə) tələb edir. Bu baxımdan dövlətin qarşısında duran mühüm məsələlərdən biri diversifikasiya proseslərinin sürətləndirilməsidir. Ayrı-ayrı regionların inkişaf etdirilməsi də bu sahədə mühüm mövqedə dayanır. Beləliklə, söyləyə bilərik ki, qeyri-neft sektorunun inkişafı ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin edilməsində əvəzsiz rola malikdir.

**Açar sözlər:** qeyri-neft,qida, kənd təsərrüfatı,aqrar sənaye

**Giriş:** Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram çoxminillik tariximizin heç bir dövründə heç bir dövlət rəhbərinə nəsib olmamışdır. Ulu öndər Heydər Əliyevi xalqımızın qəlbində bu qədər ucalığa yüksəldən, müqəddəsləşdirən isə onun Azərbaycana olan böyük sevgisi olmuşdur. Azərbaycanın müdrik və qüdrətli oğlu bütün şüurlu həyatını Vətəninin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində, böyük çətinliklər bahasına bu istəyinə çatmışdır.

Fenomenal yaddaşa, qeyri-adi istedad və biliyə malik olan Heydər Əliyev dəfələrlə ən çətinproblemlərin həllini reallaşdırdı.

"Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram" kəlamı xalqın yaddaşında həkk olunmuşdur. XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyətin xalq təsərrüfatının bütün sahələrində, eləcə də elm və təhsildə apardığı nəhəng islahatlar gələcək uğurlarımız üçün geniş zəmin və şərait yaratmışdır. 1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev o vaxtkı mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın intibahı və tərəqqisi, iqtisadiyyat, elm və təhsilin yüksəlişi üçün düşünülmüş siyasət yeritdi. Heydər Əliyevin respublikada rəhbərlikdə olduğu 1969-1982-ci illərdə Azərbaycan hökumətinin diqqət mərkəzində ən ümdə vəzifələrdən biri kənd təsərrüfatının inkişafına qayğının artırılması olmuşdur.

**Tədqiqatın məqsədi:** Məhz Heydər Əliyev xalqımızın əvəzsiz sərvəti olan torpaqdan və xüsusilə əkinçiliyin qızıl fondu sayılan suvarılan torpaqlardan daha səmərəli, daha təsərrüfatçılıqla istifadə etməyin forma və metodlarını öyrətdi. Azərbaycanda kənd təsərrüfatını sürətlə inkişaf etdirməyin mümkünlüyünü sübut etdi, bu sahədə, sözün əsl mənasında, dönüş yaratdı.

Həmin dövrdə ulu öndər çox böyük məharət və bacarıqla keçmiş SSRİ rəhbərlərinin diqqətini Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsinə yönəltmiş, respublikaya texnika, yanacaq, ehtiyat hissələri, tikinti materialları, mineral gübrə, kimyəvi preparatların gətirilməsinə nail olmuşdu.

Çoxdan bəri SSRİ rəhbərliyinin diqqətindən kənarda qalmış Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirmək haqqında geniş tədbirlər planı hazırlandı və 1970-ci il iyul ayının 23-də Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" xüsusi qərarı qəbul olundu. Praktiki olaraq həmin qərar doqquzuncu beşillikdə və ondan sonrakı dövrlərdə respublikamızın kənd təsərrüfatının inkişafını müəyyənləşdirən əməli fəaliyyət proqramı idi.

**Təqiqatın obyekti və istifadə olunmuş metodlar**:Heydər Əliyev çox aydın hiss edirdi ki, kənd təsərrüfatına məqsədli vəsait qoymadan yüksək nəticələr əldə etmək mümkün deyil. Ona görə də bu istiqamətdə düşünülmüş, əsaslı tədbirlər ardıcıllıqla həyata keçirilməyə başlandı. Nəticədə doqquzuncu beşillikdə respublikanın iqtisadiyyatında illər boyu davam etmiş geriliyə son qoyulmuş, aqrar sahənin inkişafında yeni dönüş mərhələsi başlanmış, kənd təsərrüfatı istehsalının əsaslı yüksəlişi təmin edilmişdir. Həmin beşillikdə kənd təsərrüfatının inkişafının konkret yolları müəyyənləşdirilmiş və bu inkişafın dinamikliyi üçün əsaslı tədbirlər həyata keçirilmişdi.

**Əldə edilmiş nəticələrin təhlili:**O dövrdə aqrar sahəyə vəsait qoyuluşunun artırılması mühüm vəzifə kimi qarşıda dururdu. Ona görə də doqquzuncu beşillikdə respublikamızın kənd təsərrüfatına ayrılan əsaslı vəsaitin miqdarı 1518 milyon manat məbləğində müəyyən edildi ki, bu da səkkizinci beşillikdəkinə nisbətən 57,1 faiz çox və yeddinci beşillikdəkindən 2,5 dəfə çox idi. Bu əsaslı vəsait əsas etibarilə respublikada kənd təsərrüfatının məhsuldarlığını inkişaf etdirmək üçün torpaqların irriqasiya, meliorasiya və bir sözlə, suvarma sisteminin yaxşılaşdırılmasına yönəldildi.

Ulu öndər respublikanın əhalisinin ərzaqla, sənayenin bir çox sahələrinin xammalla təmin edilməsində kənd təsərrüfatının imkanlarından maksimum istifadə edilməsi ilə yanaşı, kənd təsərrüfatı sahəsində iqtisadi islahatların keçirilməsinin sürətləndirilməsini ilk plana çəkir, respublikada heyvandarlıq sahəsində özəlləşdirmənin sürətləndirilməsini tələb edirdi: "Artıq ictimai təsərrüfatlarda mal-qaranın bütün növləri üzrə sayı azalırdı, əksinə, fərdi təsərrüfatlarda onların

miqdarı və məhsuldarlığı getdikcə artırdı. **Nəticələrin tətbiqinə dair təkliflər** : Heydər Əliyev respublikada ictimai bölmədə heyvandarlığın tənəzzülə uğramasının, sahənin zərərlə işləməsinin, heyvandarlıq məhsullarına süni surətdə aşağı qiymət qoyulmasının, satılmış məhsulun dəyərinin vaxtında alına bilməməsinin, istehsal, emal və istehlak arasında iqtisadi mütənasibliyin pozulmasına səbəb olduğunu nəzərə alaraq heyvandarlığın özəlləşdirilməsini sürətləndirdi.

Heydər Əliyevin fəaliyyəti ilə kənd təsərrüfatının əsas sahəsi olan heyvandarlığın özəlləşdirilməsi artıq öz bəhrəsini vermiş, başqa respublikalardan idxal olunan heyvandarlıq məhsullarına olan asılılıq aradan qaldırılmış və əhalinin ət və süd məhsullarına tələbatı respublikadaxili istehsalla tam təmin olunur. Keçən əsrin 70-ci illərinə qədər Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinə görə SSRİ-də ən geridə qalan respublikalardan biri idi. Kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq çox aşağı olmaqla yanaşı torpaqlardan səmərəli istifadə olunmurdu, kolxoz və sovxozların əksəriyyəti ziyanla işləyirdi, elmin və texnikanın tətbiqi hiss olunmurdu, kadr hazırlığı bərbad vəziyyətdə idi. Kənd təsərrüfatı maşınqayırma və kimya sənayesinin inkişafı haqqında heç düşünən də yox idi. Meyvə, tərəvəz, çay və digər məhsulların emalı özbaşına buraxılmış, ət, süd, pambıq və digər məhsulların emalı isə primitiv sexlərdə çox cüzi miqdarda həyata keçirilirdi.

Kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımı məhsulun emalının mövcud tələblər səviyyəsində təşkil edilməsini ön plana çəkdi. Heydər Əliyev ittifaq hökumətindən Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı sənayesinin geniş vüsət almasını təmin edən qərarların qəbul edilməsini tələb etdi və buna nail oldu.

XX əsrin əvvəllərində, istərsə də sovet hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatında əsas rolu neft sənayesi oynayırdı. Heydər Əliyev iqtisadiyyatın maddi-texniki bazasında yaranmış geriliyin aradan qaldırılması, qeyri-neft sahələrinin üstün inkişafının təmin edilməsi üçün əsaslandırılmış təkliflər hazırladı.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə bağlı müəyyən etdiyi strategiyada aqrar sektor xüsusi yer tuturdu. 1960-cı illərdə Azərbaycan kəndində əhalinin yarısı yaşayırdı, kənd təsərrüfatında istehsal olunan milli gəlir də böyük çəkiyə malik idi. 1971-1975-ci illərdə kənd təsərrüfatında da əvvəlki 5 ilə nisbətən məhsul istehsalı 34 faiz artdı, bir sıra vacib sahələrdə yüksək göstəricilərin əldə edilməsinin möhkəm təməli yarandı. 1976--1980-ci illərdə Azərbaycan kənd təsərrüfatının ümumi məhsulunun artımına görə ittifaqda birinci yerə çıxdı.

Qida məhsulları istehsalı sahəsində son illərdə əhəmiyyətli artım tempi müşayət olunsa da, bu, 1990-cı ildəki artım səviyyəsinə çatmağa imkan verməmişdir. 1996-cı ildə yeyinti sənayesində mövcud istehsalın həcmi 1990-cı ildəki istehsal həcminin 29 faizini təşkil etdiyi halda, 2016-cı ildə qida məhsulları (içkilər də daxil olmaqla) istehsalının həcmi 1996-cı illə müqayisədə cəmi 16,8 faiz, tütün məhsullarının istehsalı 148,7 faiz artmışdır. 1994-cü ildən başlayaraq iqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə adaptasiyası, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi bütün sahələrdə inkişaf mərhələsinin başlanmasına təkan verdi. Görülmüş tədbirlər nəticəsində iqtisadi inkişafın ümumiləşdirici göstəricisi olan ümumi daxili məhsulda yüksəlişə nail olundu.

**Nəticələrin tətbiqinə dair təkliflər:** Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi islahatlar kursu bütün sahələrdə nəinki öz müsbət nəticələrini vermiş, eyni zamanda Azərbaycan Respublikası regionun ən qüdrətli dövlətinə çevrilmişdir. Ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nailiyyətlər ilk növbədə bazar təsərrüfatçılıq sisteminə keçidlə bağlı həyata keçirilən islahatların sosial baxımdan təzadsız keçməsi və iqtisadi cəhətdən səmərəli xarakter daşıması ilə bağlı olmuşdur.

Artıq iqtisadiyyatın aqrar sektorunda bütün sahələrdə olduğu kimi keçid dövrü başa çatmış, aqrar sahədə müxtəlif mülkiyyət mənsublu təsərrüfatçılıq qurumları yaradılmış, azad sahibkarlıq və rəqabət mühiti formalaşdırılmışdır. Aqrar islahatlar nəticəsində kənd təsərrüfatının inkişafı bütünlükdə bazar mexanizminin qanunauyğunluqlarına və prinsiplərinə tabe etdirilmiş, bu sahədə çoxsaylı normaivhüquqi aktlar qəbul edilməklə, məhsulun satışı, gəlirlərin bölüşdürülməsi və digər

texnoloji proseslərdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-iqtisadi müstəqilliyi təmin edilmişdir.

**Nəticə:** Azərbaycan Respublikasında ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və beləliklə, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həlli tələb edilən vəzifələr ön plana çəkilmişdir.

Qeyd etmək lazımdır ki, əsas diqqəti mühüm perspektiv məsələlərin üzərində cəmləşdirmək, optimal sahələrarası və ərazi proporsiyaların müəyyən edilməsinə yönəltmək vacibdir. İqtisadiyyatın və respublika rayonlarının bir-biri ilə bağlı sahələrinin planlaşdırılmasına, iqtisadi və sosial problemlərin həllinə kompleks münasibətin gücləndirilməsi tələb olunur. Bu isə əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsini, sahə və rayonun inkişafının əlaqələndirilməsini tələb edir. Beləliklə, ulu öndərimiz Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ölkə iqtisadiyyatı sahələri arasında optimal nisbətin yaradılması çox vacibdir

**İstifadə olunmuş əddəbiyyat siyahısı:**


1. A Heydər Əliyev. Dövlət xalq üçündür [Brayl] : 3 cilddə. II cild :zərbaycan 1994. Milli dövlətçilik sınaq qarşısında. I-II hissə. Bakı, 2002
2. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”. Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
3. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair” Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. 2011-2013-cü illər üçün qeyri-neft sektoru məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı №40, Bakı: 8 fevral 2011-ci il
5. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə sosial və iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı: 20131
6. Atakişiyev M.C. – Azərbaycan 2020: Milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri. Azərbaycan Vergi jurnalı 2012
7. Бондаренко О.Ю., Веселов Д.А. – Оптимальное накопление капитала в ресурсной экономике: Препринт WP12/2009/06, 2009
8. Е.И.Лавров, Е.А.Капогузов – Экономический рост: теории и проблемы. Омск: 2006
9. Логинова В.А. – Теоретические аспекты конкурентоспособности экоромических систем. Проблемы современной экономики, 2011